Osman Fermanoğlu

## Çəkirəm

Qoca ömrü şum etmişəm
Eniş enir, dik çəkirəm.
Baxır gəlmişə, getmişə
Dörd yana örtük çəkirəm.

Çəndi gələn Qaraqaşa
Çətin yalı ağarışa
Olmuşam qara qarışqa
Dağdan ağır yük çəkirəm.

Fikrim azır yüz tərəfdə
Qatır satıram Ələfdə
Gözümdəki tirlər kefdə
Özgə gözdən tük çəkirəm.

Dolansam da qazı-qazı
Qulağım almaz avazı
Çatmır könlümün havası
Yalandan körük çəkirəm.

Osman, günüm ilin yemi
Dərd içindən gəlir dəmi
İçi boş nağara kimi
Özümü böyük çəkirəm